Ədəbiyyat qəzeti

5 dekabr 2020-ci il 23



Səlim BABULLAOĞLU

*Daha əvvəl yalnız "Sözün sirri" və başqa televizya proqramlarından qiyabi tanıdığım və tanıdığım andan məndə dərin simpatiya oyatmış - ötən əsrin 80-ci illərinin sonu, 90-cı illərin əvvəllərində, həmin dövrün intellektual birrəngliliyində onun dil haqqında, ədəbiyyat haqqında danışdıqları məni ovsunlamışdı, ilk dəfə 1997-ci ilin sentyabrında fin yazıçılarının Bakıya səfəri zamanı şəxsən tanış olduğum Kamal Abdulla haqqında indi yalnız bir söz deyə bilərəm. O dahidir. Həmişə hesab etmişəm ki, Azərbaycan ədəbiyyatına unikal əsərlər, "ağıllı mətnlər", "intellektual oyunlar" bəxş edən Kamal müəllimin yaradıcılığının arxasında dünyanın bəlli miflərinin və bədii mətnlərinin qəhrəmanları ilə özünü identifikasiya edən tənha və dahi yazıçı, yazıçı üçün aşırı həssas, olduqca maraqlı bir insan dayanır. Və ötən 23 il ərzində ümumi xronometrajı bəlkə də 12 saatı keçməyən canlı ünsiyyətimiz zamanı Kamal müəllimlə bağlı bu qənaətimi yalnız onun kitabları - roman, hekayə, şeir, tərcümə, esse və məqalələri, mütaliə formalaşdırıb. Sevinirəm ki, məhz belə olub. Çünki ola bilsin, xarakteri bəzən "çətin adam kimi" səciyyələndirilən Kamal müəllimlə bolluca şəxsi ünsiyyət bu qənaətimə "kölgə" sala bilərdi; yeri gəlmişkən, sevdiyim və yüksək dəyərləndirdiyim adamların bir çoxuyla məhz bu səbəbdən məsafə saxlamışam həmişə; daha doğrusu, bu mənim istəyimlə yox, taleyin iradəsiylə baş verib.*

*Kamal müəllimin demək olar əksər əsərlərində sezdiyim "dünya mədəniyyətinə olan xiffət"i məni həmişə sevindirib, çünki bu vacib keyfiyyət onun yazıçı və alim kimi istedadının miqyasının və vektorunun göstəricisi olub.*

*Onun müxtəlif illərdə yaratdığı Yaradıcılıq Fondu (daha əvvəl Mədəniyyət Fondu), nəşr etdiyi "Ruh" qəzeti, Yaradıcılıq Fakültəsi və ədəbi, pedaqoji, intellektual fəaliyyəti boyu gerçəkləşdirdiyi onlarca dəyərli layihələr ədəb mühitimiz üçün əvəzolunmaz impulslar olub həmişə.*

*Əziz Kamal müəllimə və onun qəlbləri, ağılları fəth edən dühasına uzun, sağlam, məhsuldar onillər arzu edirəm: çox yaşasınlar!*